Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 155 (8178) CÜMƏ, 19 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Böyük islahatlar ili

## İlham Əliyevin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halının daha da yüksəldilməsinə yönəltməkdir

Müasir Azərbaycan cəmiyyəti öz inkişafının elə bir tarixi mərhələsini yaşayır ki, hər bir vətəndaş dövlətin iqtisadi inkişafının uğurları fonunda xalqın sosial rifahının yüksəldilməsi istiqamətində görülən işlərə şahidlik edir və atılan addımları düzgün qiymətləndirə bilir. Bu gün həqiqətən Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə hətta bir çox böyük ölkələrdə belə müşayiət olunmur. Ölkəmizin hər bir vətəndaşı aydın şəkildə dövlətin onun yanında olduğunu görür və bunu yüksək dəyərləndirir. İlin əvvəlindən başlayaraq Prezident İlham Əliyevin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar təsdiq etdi ki, dövlətin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halının daha da yüksəldilməsinə yönəltməkdir.

Son 16 ildə, yəni 2003-cü ildən ötən dövrdə əməkhaqlarının 7,5 dəfə, pensiyaların 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlərin dəfələrlə artırılması, yoxsulluğun 5 faizə enməsi bunu təsdiqləyir. 2003-cü ilə nisbətən ölkə üzrə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq 250 manata çatdırılıb, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatıb.

Təkcə bu il ərzində minimum əməkhaqqının, pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi və əhalinin sosial müdafiəsinin yüksəldilməsi sahəsində atılan addımların əhatə dairəsini daha da genişləndirmək məqsədilə imzalanan sənədlər əlbəttə ki, xalqın dövlətə, onun liderinə olan inam və etimadını daha da gücləndirir.

2019-cu ildə elə bir sahə yox idi ki, maaşlarda, eləcə də sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin. Prezidentin sosial islahatlar paketi çərçivəsində bu il təqdim etdiyi iki sosial paket xalqın rifahının yüksəldilməsi istiqamətində bir-birinin ardınca atılan inqilabi xarakterli addımlar idi. Dövlət başçısının bu ilin ilk aylarında təqdim etdiyi birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün həmin artımlardan 830 min insan yararlanır. Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib. Aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib.

Cari ilin ilk rübündə reallaşdırılan və artımların təmin edilməsi üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək kimi cəmiyyət tərəfindən yüksək dəyərləndirilir.

Prezident İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını bir daha təsdiqlədi. İlin birinci rübünün yekunlarına dair keçirilən iclasda dövlət başçısı bildirmişdi ki, sosial sahədəki artımlar dövləti qane etmir və yaxın zamanlarda minimum pensiya və müavinətlər, əməkhaqlarında artımlar olacaq. İki ay sonra dövlət başçısı imzaladığı sərəncamlarla bir daha verdiyi sözə, vədə sadiq olduğunu təsdiqlədi.

Bu sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olundu. “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 18 iyun 2019-cu il tarixli sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği cari il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olur. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyəcək. Yəni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox olacaq. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin (muzdla çalışanların azı 63 faizini) maaşlarının artımına səbəb olacaq ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

Həmçinin Prezidentin sərəncamı ilə pensiyaların minimum məbləği oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Bu, təxminən 25 faiz artım deməkdir. Minimum pensiya məbləğinin artırılması ümumilikdə 660 min pensiyaçını əhatə edəcək. Artımın edilməsi üçün illik 216 milyon manat, cari il (oktyabr-dekabr ayları) üzrə 62 milyon manat əlavə vəsait yönəldiləcək.

Göründüyü kimi, il ərzində minimum əməkhaqları, əmək pensiyası artıq ikinci dəfə ciddi şəkildə artır. Belə ki, əgər mart ayına qədər minimum əməkhaqqı 130 manat idisə, bu rəqəm 3 ayda iki dəfə artaraq əvvəlcə 180, sonra isə 250 manata yüksəldi. Bu, ümumilikdə 92,3 faiz artım deməkdir. Mart ayınadək olan minimum pensiya 116 manat idisə, iki sərəncamla əvvəl 160, sonra isə 200 manata yüksəldi. Yəni minimum pensiyanın məbləğində 72,4 faiz artım edildi. Bu isə o deməkdir ki, oktyabr ayından ölkədə 200 manatdan aşağı pensiya alan olmayacaq.

Ardı 3-cü səh.

# İpək kimi

## Barama istehsalı son 5 ildə 2,6 min dəfə artmışdır

Ölkədə yaş barama tədarükü üzrə iyunun 30-na olan məlumata görə, kümçülərimiz “Azəripək” MMC-yə 633,26 ton yaş barama təhvil vermişlər. Onu da xatırlamaq yerinə düşər ki, 5 il əvvəl ölkədə cəmi 236 kiloqram yaş barama tədarük edilmişdi. Yəni bu günə tədarük edilən yaş baramanın çəkisi 5 il əvvəlkindən 2682 dəfə çoxdur.

Ardı 3-cü səh.



# Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycanda uğurla reallaşır

## Nailiyyətlərimiz BMT rəhbərliyi tərəfindən təqdir olunub

Bir neçə gün əvvəl Birləşmiş Millətlər Təşkilatının Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın ikinci Könüllü Milli Hesabatı təqdim olunub. Hesabat iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.

2016-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində elan edilib. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Elə həmin sammitdə Azərbaycan da Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub.

Dayanıqlı inkişaf məqsədləri dedikdə gələcək nəsillərin öz ehtiyaclarını qarşılamaq imkanına xələl gətirmədən, bugünkü ehtiyacların qarşılanmasına imkan verən inkişaf nəzərdə tutulur. Bu məqsədlər yoxsulluğa və aclığa son qoymaq, yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq, hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək, gender bərabərliyinə nail olmaq, dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək, möhkəm infrastruktur yaratmaq, innovasiyaların inkişafına dəstək vermək, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək, su ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək üçün ölkələrin qlobal fəaliyyət istiqamətlərini müəyyən edəcək yeni inkişaf gündəliyinin təməlini qoyub. Bununla da Dayanıqlı İnkişaf Məqsədləri əslində insanlar və planet üçün inklüziv, dayanıqlı və möhkəm əsaslı gələcək qurmaq üçün birgə razılaşdırılmış səylər göstərməyə çağırır.

Xatırladaq ki, Dayanıqlı İnkişaf Məqsədləri 2000-2015-ci illər ərzində həyata keçirilmiş Minilliyin İnkişaf Məqsədləri əsasında hazırlanıb.

Ardı 3-cü səh.

## XV Avropa Gənclər Yay Olimpiya Festivalı




# Bakıda idman bayramı



Avropanın idman paytaxtı Bakıda son 4 ildə keçirilən mötəbər yarışların həyəcanlı anlarının təsirindən hələ də ayrıla bilməmişik. 2015-ci il iyun ayında qitənin və bütün dünyanın diqqət mərkəzində olan, yüksək səviyyədə təşkili ilə hətta ən tələbkar mütəxəssisləri də heyrətə gətirən I Avropa Oyunları böyük bayrama çevrilib idman hərəkatında yeni dövrün ilk səhifəsi kimi tarixdə özünə layiqli imic qazanıb.

Oyunların təşkili dünyanın, demək olar, hər yerində böyük rəğbətlə qarşılanmış, iştirakçıların və tamaşaçıların qəlbində xoş hisslər oyatmışdı. Eyni fikirləri 2017-ci ildə keçirilən və islam dünyasını bir araya gətirən IV İslam Həmrəyliyi Oyunları barədə də demək olar.

İyulun 21-də Avropa növbəti dəfə Bakıda toplaşır. Paytaxtımız Avropa Gənclərinin XV Yay Olimpiya Festivalına evsahibliyi edəcək. Növbəti dəfə belə bir nüfuzlu turnirin ölkəmizə həvalə olunması Azərbaycana yüksək inamın, etibarın daha bir nümunəsidir.

Ardı 6-cı səh.

## Avropa İttifaqı Şurasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Şarl Mişelə

Hörmətli cənab Mişel!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2019-cu il*

## Avropa Komissiyasının yeni seçilmiş Prezidenti zati-aliləri xanım Ursula Fon der Lyayenə

Hörmətli xanım Fon der Lyayen!

Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2019-cu il*

## FHN Avropa Gənclər Yay Olimpiya Festivalı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq

İyulun 21-27-də Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalı ilə əlaqədar təhlükəsizliyin aidiyyəti üzrə təmin edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi (FHN) gücləndirilmiş iş rejimində çalışacaq.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov bununla bağlı əmr imzalayıb.

Əmrə əsasən, Oyunların keçiriləcəyi idman obyektlərində və ətrafında, qonaqların yerləşəcəkləri hotellərdə, habelə insanların kütləvi toplaşdıqları məkanlarda, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrin qarşısının çevik alınması, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılmasının təmin edilməsi məqsədilə nazirliyin aidiyyəti qüvvə və vasitələri yüksək hazırlıq vəziyyətinə gətirilib.

# Azərbaycanın Baş Nazirinin müavini BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun Nazirlər Seqmentində çıxış edib

ABŞ-ın Nyu York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun dövlət və hökumət rəsmilərinin iştirak etdikləri Nazirlər Seqmentində çıxış edib.



AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsipinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması barədə ətraflı məlumat verib. O, son 15 ildə 2 milyondan çox iş yerinin yaradıldığını, əməkhaqları və pensiyaların dəfələrlə artırıldığını, sosial infrastrukturun əhəmiyyətli dərəcədə yaxşılaşdırıldığını diqqətə çatdırıb.

Baş Nazirin müavini Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası istiqamətində fəaliyyətlərin səmərəli əlaqələndirilməsi məqsədilə yüksək səviyyəli Milli Əlaqələndirmə Şurasının yaradıldığını, DİM-lərə inteqrasiya prosesinin davam etdirildiyini və bütün maraqlı tərəflərin bu prosesə cəlb edilməsi üçün respublika səviyyəsində müxtəlif ictimai dinləmələrin həyata keçirildiyini bildirib.

Eyni zamanda, Baş Nazirin müavini, ölkəmizdə DİM-lərə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində erməni işğalçıları tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb. O, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin hələ də yerinə yetirilmədiyini vurğulayıb.

# BMT Baş katibinin müşaviri Azərbaycanda aparılan sosial-iqtisadi islahatları yüksək qiymətləndirib

Azərbaycanın Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper və Misirin Planlaşdırma, Monitorinq və Administrativ İslahatlar naziri xanım Hala Əlsaid ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Robert Piper ilə görüşdə Əli Əhmədov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə əməkdaşlığının uğurla davam etdiyini, bu əməkdaşlıq çərçivəsində bir sıra uğurlu layihələrin həyata keçirildiyini, o cümlədən ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulması ilə təşkilatla əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün fəaliyyət planları, strategiyalar və dövlət proqramlarının DİM-lərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.

Bundan başqa, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü və bütün bunların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında çətinliklər yaratdığı qeyd edilib. Bu məqsədlə dövlət tərəfindən qaçqın və məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi, onların sosial xidmətlərə çıxışının artırılması və maddi rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlərin görüldüyü vurğulanıb.

Baş katibin müşaviri Robert Piper BMT sistemində aparılan islahatlar barədə məlumat verib və bu dəyişikliklərin ölkələrlə əməkdaşlıqda daha səmərəli nəticələrə nail olunacağını söyləyib. O, Azərbaycanda aparılan sosial-iqtisadi islahatları və ölkəmizin DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. Baş katibin müşaviri Azərbaycanda qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunduğunu vurğulayaraq bütün bunların ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi müsbət yanaşmanın nümunəsi olduğunu diqqətə çatdırıb. Robert Piper DİM-lərə nail olunmasında bütün maraqlı tərəflərin prosesə cəlb olunmasının vacibliyini qeyd edərək xüsusilə bu istiqamətdə dövlət-özəl sektor tərəfdaşlığının əhəmiyyətini vurğulayıb. Bu məqsədlə BMT, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə birlikdə regionda DİM-lərin həyata keçirilməsi üzrə ən uğurlu ölkə olduğunu nəzərə alaraq Azərbaycanda bu istiqamətdə pilot layihələrin həyata keçirilməsinin mümkünlüyünü diqqətə çatdırıb.

Baş katibin müşaviri Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb. O eyni zamanda, məcburi köçkünlərin əmək bazarına inteqrasiya edilməsi və məşğulluqlarının artırılması istiqamətində Azərbaycan hökuməti ilə birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü qeyd edib.

Nazir Hala Əlsaidlə görüş zamanı Baş Nazirin müavini Əli Əhmədov Azərbaycanın Misirlə daim dostluq münasibətlərinin olduğunu və bir sıra istiqamətlərdə əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. O, bu əməkdaşlığın gələcəkdə DİM-lər, əhali artımı və demoqrafik planlaşdırma üzrə daha da genişləndirilməsinin mümkünlüyünü vurğulayıb.

Xanım Hala Əlsaid Azərbaycanı DİM-lərin həyata keçirilməsi üzrə müsbət təcrübə qazanması və artıq 2 milli hesabat təqdim etməsi münasibətilə təbrik edib. O, bu istiqamətdə Misir Ərəb Respublikası ilə əməkdaşlığın genişləndirilməsini təklif edib. Nazir, eyni zamanda, Azərbaycanda əhaliyə göstərilən dövlət və sosial xidmətlərin səmərəli tətbiqi üçün yaradılan "ASAN" və "DOST" mərkəzlərinin fəaliyyəti ilə tanış olmaq və bu təcrübənin Misirdə tətbiq edilməsi üçün əməkdaşlığın qurulması məqsədilə ölkəmizə səfər etmək niyyətinin olduğunu bildirib. Səfər Baş Nazirin müavini tərəfindən müsbət qarşılanıb və xanım nazir Bakıya dəvət edilib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Vaşinqtonda bir sıra görüşlər keçirib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı cari ilin 16-18 iyul tarixlərində Vaşinqtonda keçirilən Din Azadlığının İrəlilədilməsi üzrə Nazirlər Konfransı çərçivəsində iyulun 16-da ABŞ Dövlət Departamentinin beynəlxalq din azadlıqları sahəsində xüsusi tapşırıqlar üzrə səfiri Sem Braunbek ilə görüşüb.



Komitədən AZƏRTAC-a bildiriblər ki, M.Qurbanlı ölkəmiz haqqında, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən müasir Azərbaycanın dövlət-din münasibətləri modeli, ölkəmizdəki dini durum barədə ətraflı məlumat verib. Komitə sədri tolerantlığın və multikulturalizmin ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu və bu ənənələrin Azərbaycan dövləti tərəfindən inkişaf etdirildiyini qeyd edib. 35-i qeyri-islam olmaqla 942 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan komitə sədri bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Görüş zamanı Azərbaycan həqiqətləri barədə də danışan Mübariz Qurbanlı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini vurğulayıb.

S.Braunbek Azərbaycan haqqında məlumatlı olduğunu, ABŞ-ın Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu bildirib. Həmçinin Ulu Öndər Heydər Əliyevlə görüşlərini xatırladaraq bu təəssüratların onun yaddaşında silinməz iz buraxdığını vurğulayıb. Eyni zamanda, ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının məmnunluqla qarşılandığını qeyd edib.

Daha sonra tərəflər konfrans çərçivəsində imzalanacaq bəyanatlar barədə fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycandakı dini icmaların fəaliyyəti, ölkəmizin tolerantlıq və multikulturalizm ənənələrini əks etdirən və DQİDK-nın dəstəyi ilə nəşr edilmiş ədəbiyyatlar S.Braunbekə təqdim edilib.

Qeyd edək ki, S.Braunbek 1996-2011-ci illərdə ABŞ senatoru, 2011-2018-ci illərdə isə ABŞ-ın Kanzas ştatının qubernatoru vəzifələrində çalışıb. O, 2018-ci ilin fevralında ABŞ Prezidenti D.Tramp tərəfindən Dövlət Departamentinin xüsusi tapşırıqlar üzrə səfiri vəzifəsinə təyin olunub.

Görüşdə Azərbaycan nümayəndə heyəti ilə birgə ölkəmizin ABŞ-dakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

* * *

Vaşinqtonda keçirilən Din Azadlığının İrəlilədilməsi üzrə Nazirlər Konfransı çərçivəsində bu ölkədə səfərdə olan Azərbaycan nümayəndə heyətinin rəhbəri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyulun 17-də amerikalı yazıçı Joel Rosenberqlə görüşüb.

Bu barədə AZƏRTAC-a komitənin mətbuat xidmətindən məlumat verilib

Komitə sədri ölkəmiz, onun tarixi, dövlət-din münasibətləri haqqında ətraflı məlumat verib, tolerantlığın və multikulturalizmin Azərbaycanda çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu və bu ənənələrin dövlət tərəfindən inkişaf etdirildiyini qeyd edib. M.Qurbanlı ölkə əhalisinin 96 faizinin mənsub olduğu islam dini ilə yanaşı, digər dinlərin nümayəndələrinin də qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunur, məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur. Hər il dövlət başçısı tərəfindən dini konfessiyaların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə maliyyə vəsaiti ayrılır.

Qeyd edək ki, J.Rosenberq "Nyu York Tayms" nəşrinin bestseller hesab olunan, 5 milyon nüsxə ilə buraxılmış 13 roman və 5 publisistik əsərin müəllifi olmaqla yanaşı, həm də "Coşua" Xeyriyyə Fonduna rəhbərlik edir.

M.Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 17-də ABŞ-ın yəhudi icmasının nüfuzlu qurumlarından olan Simon Vizental Mərkəzinin təsisçisi Abraham Kuper və yevangelist icmasının nümayəndəsi Conni Murla da görüşüb. Azərbaycanın ABŞ-dakı səfirliyində keçirilmiş görüşdə ölkəmizin nümunəvi tolerantlıq siyasətindən bəhs edən dövlət komitəsinin sədri Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı tolerant münasibətin qarşılıqlı hörmətə və əməkdaşlığa, bir-birini dəstəkləmək prinsipinə əsaslandığını bildirib. O, Azərbaycan xalqının dözümlülük keyfiyyətinin, ölkədə hökm sürən tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Dövlətin qarşısına qoyduğu məqsədlərdən birinin bu mühiti qoruyub-saxlamaq və təşviq etmək olduğunu deyən Mübariz Qurbanlı ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsinin Azərbaycanı dünyada multikulturalizmin mərkəzlərindən birinə çevirdiyini vurğulayıb.

Abraham Kuper dinlərə münasibətdə tolerantlığı, sünni və şiələr arasındakı vəhdəti ilə seçilən Azərbaycanın bu spesifik xüsusiyyətlərinə görə bütün dünyada fərqləndiyini vurğulayıb. O, bunun mütərəqqi dünyanın və beynəlxalq qurumların rəsmilərinin etiraf etdikləri fakt olduğunu deyib. Ölkəmizin tolerantlıq ənənələri və dinlərarası dialoqa dair nümunəvi modelə malik olduğunu diqqətə çatdıran A.Kuper yəhudi icmalarına göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

Yevangelist icmasının nümayəndəsi Conni Mur Azərbaycanın dünyaya birgəyaşayış nümunəsi nümayiş etdirdiyini və bu modelin kökündə dini azadlıqların təmin edilməsinin dayandığını vurğulayıb.

Hər iki görüşdə dünyada tolerantlığı, dinlərarası dialoqu dəstəkləyən və bu prosesdə aktiv iştirak edən Azərbaycanın hazırda dinlərarası və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini, bu istiqamətdə müxtəlif konfrans və forumlara evsahibliyi etdiyini diqqətə çatdıran M.Qurbanlı cari ilin noyabrında Bakıda keçirilməsi nəzərdə tutulan "Dünya dini liderlərinin II Bakı sammiti", o cümlədən Bakı şəhəri "Şərqdə Ulduz" xristian və Bakı şəhəri "Yevangelist Xristian Baptistlərin Kilsəsi" dini icmalarının bu günlərdə DQİDK-də yenidən qeydiyyatdan keçmələri və onlara şəhadətnamələr təqdim edilməsi, eləcə də Azərbaycan həqiqətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edilməsi barədə məlumatlar verib.

Din Azadlığının İrəlilədilməsi üzrə Nazirlər Konfransının gedişi ilə bağlı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşlərin sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 18-də Sabirabad, Tərtər, Zəngilan rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da qeyd etdiyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi İmişli və Ağcabədidə vətəndaşları qəbul edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov iyulun 18-də İmişlidə Beyləqan, İmişli və Füzuli rayonlarından olan vətəndaşların qəbulunu keçirib. AZƏRTAC xəbər verir ki, qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun qaydada tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

Həmin gün, həmçinin Xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Ağcabədidə Ağdam və Ağcabədi vətəndaşlarını qəbul edib.

Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 30 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb edilmə, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

## Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması nəticəsində Azərbaycan əsgəri yaralanıb

İyulun 18-də saat 00:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Ermənistanın Noyemberyan rayonunun Zorakan kəndi istiqamətindən iriçaplı silahlardan atəş açılmaqla atəşkəs rejimi pozulub, Qazax rayonunun İkinci Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqeləri atəşə tutulub. Cavab atəşi ilə düşmən susdurulub.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, hadisə zamanı DSX-nin Sərhəd Qoşunlarının Qazax Sərhəd Dəstəsinin sərhəd döyüş məntəqəsində döyüş növbəsində xidmət aparan əsgər Ceyhun Bayramov yaralanıb. Sərhədçi əsgərə dərhal təxirəsalınmaz tibbi yardım göstərilib və hazırda həyatı üçün təhlükə yoxdur.

DSX-nin rəisi, general-polkovnik Elçin Quliyev hadisə yerində olub, sərhəd döyüş məntəqəsinin şəxsi heyəti ilə görüşüb, xidməti-döyüş fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber və Paravakar, Berd rayonunun Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Məzəm, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## Xarici İşlər Nazirliyi Dövlət Sərhəd Xidmətinin əsgərinin yaralanması faktı ilə bağlı açıqlama verib

Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqelərini iriçaplı silahlardan atəşə tutub və hadisə zamanı Dövlət Sərhəd Xidmətinin əsgəri Ceyhun Bayramov yaralanıb. Xüsusilə vurğulamaq istərdik ki, bu hadisə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində deyil, məhz Ermənistan-Azərbaycan sərhədində baş verib.

Bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayevanın açıqlamasında yer alıb.

Leyla Abdullayeva bildirib ki, Ermənistanın Baş naziri dünən müsahibəsində münaqişənin həlli üzrə aparılan danışıqların konkret nəticə verməsi üçün erməni və azərbaycanlı xalqlarının maraqlarına cavab verən həllin əldə olunmasının vacibliyindən bəhs edib. Bu bəyanatın verilməsindən bir neçə saat sonra Ermənistan-Azərbaycan sərhədində sözügedən insident baş verib. Belə olduğu halda, Ermənistan rəhbərinin sülh və münaqişənin həlli ilə bağlı dediklərinə necə inanmaq olar?! Baş vermiş bu hadisə ATƏT-in Minsk qrupunun həmsədrlərinin xalqların sülhə hazırlanması ilə bağlı məlum çağırışına tam şəkildə ziddir.

"Ermənistan rəhbərliyi sonunda anlamalıdır ki, həm erməni, həm də Azərbaycan xalqlarının marağında olan əsas məsələ bölgədə davamlı sülh və rifahın təmin edilməsidir. Buna nail olmağın yeganə yolu isə hərbi işğal amilinin aradan qaldırılması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının təmin olunmasıdır. Yalnız bundan sonra bölgədə hər iki xalqın marağına cavab verən dayanıqlı sülh, inkişaf və tərəqqi təmin ediləcək", - deyə Xarici İşlər Nazirliyinin mətbuat katibi bildirib.

***"Azərbaycan"***

# Böyük islahatlar ili

## İlham Əliyevin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halının daha da yüksəldilməsinə yönəltməkdir

*Əvvəli 1-ci səh.*

Cənab İlham Əliyevin sosial siyasətinin davamı kimi cari ilin ötən dövründə həyata keçirilən və vətəndaş rifahının yüksəldilməsinə xidmət edən iki mühüm sosial islahat paketi 4 milyon 200 min vətəndaşı əhatə edir. Sosial-iqtisadi inkişafda yeni mühüm irəliləyişlərə zəmin yaradan həmin addımların atılması üçün dövlət tərəfindən əlavə olaraq illik 3,9 milyard manat ayrılacaq ki, bu da Azərbaycan Prezidentinin ölkə vətəndaşlarına xüsusi diqqətini və qayğısını bir daha göstərir.

Bütün bu uğurları şərtləndirən amil əlbəttə ki, ölkənin uğurlu iqtisadi inkişafıdır. Həyata keçirilən iqtisadi islahatlardan əldə edilən dividendlər artıq sosial sferaya yönəldilir.

Bu gün Azərbaycanın iqtisadi inkişafı göz önündədir. Prezident İlham Əliyev iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələri ilə görüşdə söylədiyi kimi, hazırda Azərbaycan dövləti ölkə iqtisadiyyatının şaxələndirilməsi üzərində işləyir. Bu gün neft-qaz sektorundan asılılığın azaldılması dövlətin əsas vəzifəsidir.

İqtisadi inkişaf göstəricilərinə nəzər yetirsək, aydın şəkildə iqtisadi islahatların real nəticələrinin şahidi olarıq. Belə ki, bu il ölkədə qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında rekord həcmdə, təxminən 13 faiz artım olub. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. Hətta beynəlxalq təşkilatların proqnozları da müsbətdir. Belə ki, Dünya Bankı Azərbaycan iqtisadiyyatının 2019-cu ildə 3,3 faiz, Beynəlxalq Valyuta Fondu isə 3,4 faiz artacağını proqnozlaşdırır. Ötən il iqtisadiyyata 8,2 milyard dolları xarici investisiyalar olmaqla 15,3 milyard dollar sərmayə yatırılıb. Bütün bunlar isə iqtisadiyyatın şaxələndirilməsinin yaxşı nəticələr verdiyini bir daha təsdiqləyir.

Maaşların, pensiyaların, müavinətlərin və təqaüdlərin bir il ərzində bir neçə dəfə artırılması əhalinin sosial durumuna ciddi şəkildə təsir edəcək və insanların alıcılıq qabiliyyətini artıracaq. Atılan addımlar, eyni zamanda beynəlxalq reytinq təşkilatları tərəfindən də təqdir edilir. Proseslər göstərir ki, aparılan sosial siyasətin alternativi yoxdur. Ölkəmiz inkişaf, tərəqqi yolunu seçib və əminliklə deyə bilərik ki, 2019-cu il müasir Azərbaycan tarixində islahat ili kimi yaddaşlara həkk olunacaq.

Prezident İlham Əliyev may ayının 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində də bu məsələyə toxunaraq islahatların davam edəcəyini vurğulamışdı: "Biz Dünya Bankının biznes mühitinə dair hesabatına görə, bu gün dünyada 25-ci yerdəyik. Mən bunu dəfələrlə qeyd edirəm, ictimaiyyət bilsin ki, nə qədər böyük islahatlar aparılıb və aparılacaq. Bu, imkan verir ki, biz sosial sahəni də gücləndirək, işsizliyi aradan qaldıraq, yerli istehsalı artıraq və beləliklə, vətəndaşların sosial təminatını gücləndirək. Bu il atılan addımlar, imzalanmış sərəncamlar, qəbul edilmiş qərarlar bizim siyasətimizi əks etdirir. Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yollar yenidən qurulur

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin Bərdə rayonundakı 43 nömrəli Yol istismar MMC-kollektivi son illər rayon ərazisində yol infrastrukturunun müasir tələblər səviyyəsində yenidən qurulması üçün xeyli iş görmüşdür.





Başqa sözlə, ölkə rəhbərinin müvafiq sərəncamlarından sonra respublika əhəmiyyətli Yevlax-Xocalı-Laçın və Bərdə İstisu avtomobil yollarının Bərdə rayonu ərazisindən keçən hissələri əsaslı təmir edilmiş, Alpout-Mustafaağalı-Qaratəpə-Nazırlı, Mollaisalar-Vəliuşaqlı-Mollaəhmədli-Sərkarlar, Yeni Daşkənd-Umudalılar, Muğanlı-Körpüsındıran-kəndlərarası avtomobil yolları yenidən qurulmuş, Bərdə şəhəri ərazisində və Əyricə kəndində Tərtər çayı üzərində yeni körpülər tikilib istifadəyə verilmişdir.

43 nömrəli Yol İstismar MMC-nin sədri İlham Əzimov dedi ki, inşaatçılarımız havaların isti keçdiyi günlərdə də var qüvvə ilə çalışır, işi keyfiyyətlə yerinə yetirməyə səy göstərirlər. Hazırda kənd yollarının təmir olunması istiqamətində işlər davam etdirilir. Bu günlər Lənbəran-Təhlə, Saatlı, Mirasəfli kəndlərinə gedən 11,7 kilometr yola asfalt örtük salınıb. Qarağacı-Mollagüllər, Mollalı, Bala Qəcər-Qullar, Kətəlparaq Piyadalar, Qayalı və Bəcirəvan avtomobil yollarının çınqıl yatağı asfalt işləri üçün hazırlanıb. Zümürxan-İmamqulubəyli-Çəmənli və İkinci Qarədəmirçi avtomobil yollarında asfalt salınması işləri davam etdirilir. Qarşıda görüləsi işlər çoxdur. Dövlətin xalqın güzəranını daha da yaxşılaşdırmağa hesablanan sosial siyasəti bizə güc verir, yeni nailiyyətlərə ruhlandırır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İpək kimi

## Barama istehsalı son 5 ildə 2,6 min dəfə artmışdır

*Əvvəli 1-ci səh.*

Bu o deməkdir ki, baramaçılıq indi ölkənin aqrar sektorunda inkişaf tempinə görə rekord qıran ənənəvi sahələrdən biridir. Əlbəttə, heç bir uğur asan əldə edilmir. Azərbaycan baramaçılarının son 5 ildə qazandıqları nailiyyətlər müasir dünya təcrübəsinin tətbiqinin, dövlətin ciddi maliyyə dəstəyinin və kümçülərə verilən xüsusi diqqətin nəticəsidir.

Baramaçılıq dünyada xüsusi imici, bənzərsiz keyfiyyətləri ilə seçilən sahədir. Xalqımız əsrlər boyu ipək istehsal etmiş, onun şöhrətini göylərə qaldırmışdır. İpək məhsullar milli geyimlərimizin, bayramlarımızın və toylarımızın bəzəyi olmuşdur. Digər tərəfdən, ipək dünyada ən təmiz ekoloji məhsul sayılır, min hektarlarla çəkilliklərin - tut bağlarının salınması, tingçiliyin inkişafı ekoloji balansı qoruyur, yaşıllıqları artırır. Elə ona görə də ölkəmizə milyonlarla çilingin gətirilib yeni yaşıllıqların yaranmasına, təbii landşaftın qorunmasına ciddi dəstək verilir. Bunlardan əlavə, barama qurdlarının inkubasiyası, yemlənməsi və yetişməsi mərhələlərində herbisidlərin və pestisidlərin tətbiqi sıfır səviyyəsində olur. Yəni bu proses başdan-ayağa ekoloji cəhətdən tam təhlükəsizdir.

İndi dünya bazarlarına insanların səhhəti və sağlamlığı üçün ziyanlı olan yüzlərlə məhsul çıxarılır. Bir çox kənd təsərrüfatı məhsulları yetişdirilərkən tətbiq edilən pestisidlər və herbisidlər çoxsaylı ağır xəstəliklərə səbəb olur. Məhz bu baxımdan barama ən təmiz və nadir ekoloji məhsuldur. Məhz bu amillərə görə, baramaçılığın inkişafında əldə edilən uğurlarla öyünməyə dəyər.

Yeri gəlmişkən xatırladaq ki, Azərbaycanda yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5 min, 1985-ci ildə 5,5 min ton olmuşdur. O illər Elmi-Tədqiqat İpəkçilik İnstitutu, damazlıq stansiyaları, barama toxumu zavodları, rayon barama qurutmaxanaları, ipəkçilik idarələri, tingçilik təsərrüfatları və emal müəssisələri vahid kompleks şəklində fəaliyyət göstərirdi. İpəkçiliyin elmi əsasları işlənilir, tut ağaclarının və ipəkqurdunun seleksiyasına dair tədqiqatlar aparılır, superelit toxumlar hazırlanırdı. Təəssüf ki, belə bir sahə müstəqilliyin bərpasından sonrakı ilk illərdə tənəzzülə uğramışdı.

2016-cı ildən isə ipək istehsalının müasir infrastrukturunun yaradılmasına qərar verildi və həmin il barama istehsalı 70,7 tona, 2017-ci ildə isə 245,2 tona çatdırıldı. Prezidentin "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" və "İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamlarına uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyası bərpa edildi, əlavə istehsal sahələri yaradıldı.

Baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramına əsasən, ölkədə sözügedən sahəyə investisiyaların cəlb edilməsi, kümçülərə səmərəli iqtisadi dəstək mexanizminin formalaşdırılması, tut (çəkil) ağaclarının məhsuldarlığının artırılması və barama toxumçuluğunun inkişafı istiqamətində ciddi tədbirlər həyata keçirilir. Nəticələr ürəkaçandır. Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına görə, cari ildə ən çox yaş barama təhvili iyunun 13-də qeydə alınıb. Həmin gün kümçülər tərəfindən ümumilikdə 121,69 ton yaş barama təhvil verilib. Əgər 5 il əvvəl kim desəydi ki, kümçülər bir gündə bu qədər barama təhvil verəcəklər, heç kəs inanmazdı.

Bu il barama tədarükünə görə Zərdab, Ağcabədi, Zaqatala, Füzuli, Şəki, Balakən, Bərdə, Qax, Kürdəmir, Ağdaş, Tərtər və Ağdam rayonları öndədir. Son məlumata görə, Zərdabda 65,32, Ağcabədidə 54,46, Zaqatalada 52,95, Füzulidə 49,54, Şəkidə 47,89, Balakəndə 44,14, Bərdədə 36,6, Qaxda 27,29, Kürdəmirdə 22,62, Ağdaşda 17,62, Tərtərdə 17,34, Ağdamda 16,38, Göyçayda 16,57, Sabirabadda 14,2, Ucarda 12,25, Tovuzda 11,45 ton yaş barama tədarük edilmişdir.

Məlumat üçün bildirək ki, hazırda ölkə üzrə 38 rayonda yaş barama tədarük olunur. "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində 2025-ci ilədək yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulur.

Yaş barama istehsalı dövlət tərəfindən subsidiyalaşdırılır. Kümçülər yaş baramanı kiloqramı 4 manatdan "Azər-ipək" MMC-yə təhvil verirlər. Dövlət əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 5 manat subsidiya ödəyir. Ümumilikdə fermer təhvil verdiyi hər kiloqram yaş baramanın əvəzində 9 manat alır.

Baramaçılığın yem bazasının yaradılması məqsədilə son 3 ildə Çindən ölkəmizə 3,5 milyon tut tingi (çəkil) gətirilərək əkilmişdir. Sonuncu dəfə ötən il dekabrın 4-də Çindən gətirilən 1 milyon tut tingi 36 rayona paylanmışdır.

Bu gün dünya bazarlarında ipək məhsullara tələbatın artması müşahidə olunur. İpək dünya toxuculuq sənayesi malları bazarının yalnız 0,2 faizini təşkil etsə də, ipəkçilik dünyanın 30-dan çox ölkəsində yayılmışdır. Çin, Hindistan, Özbəkistan və Braziliya ən böyük ipək istehsalçılarıdır. Dünya üzrə xam ipək istehsalının 84, ixracın 54,1 faizi Çin Xalq Respublikasının payına düşür. Hindistan ikinci yerdə olsa da, yerli əhali arasında ipək parçalardan istifadə geniş yayıldığı üçün istehsal əsasən yerli tələbatı ödəyir. İpək istehsalı ölkənin ixrac potensialını gücləndirir, istedadlı modelyerlərin, dizaynerlərin diqqətini perspektivli sahə kimi özünə cəlb edir. Bütün bunlar həm də onu deməyə əsas verir ki, baramaçılıq ən geniş ixrac imkanlarına malik olan sahələrdən biridir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycanda uğurla reallaşır

## Nailiyyətlərimiz BMT rəhbərliyi tərəfindən təqdir olunub

*Əvvəli 1-ci səh.*

Yüz milyonlarla insanın həyatı məhz həmin inkişaf gündəliyinin birgə tətbiqi nəticəsində yaxşıya doğru dəyişib. Belə ki, Minilliyin İnkişaf Məqsədləri yoxsulluğun azaldılması, daha yaxşı içməli su mənbələrinə çıxışın təminatı, yoxsul təbəqənin həyat səviyyəsinin yaxşılaşdırılması, ibtidai təhsildə gender bərabərliyinin təmin olunması kimi hədəfləri reallaşdırıb. Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinin tətbiqi dövründə yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə qədər azalıb, məktəblərə qeydiyyat dərəcəsi ibtidai, ümumi və tam orta təhsil səviyyələrində 100 faiz təşkil edib, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında tərəqqiyə nail olunub, uşaq və ana ölümü əhəmiyyətli dərəcədə azalıb, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə gücləndirilib, ətraf mühitin mühafizəsi və qorunması üçün qlobal tərəfdaşlığın təmin edilməsində mühüm irəliləyişlər əldə edilib.

Lakin Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş hədəflər daha böyükdür və 17 prioritet vəzifə qarşıya qoyulub. Yeni məqsədlərin özünəməxsusluğu isə onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur.

Azərbaycan dövləti bütün bu 17 məqsədi əhatə edən uğurlu dövlət siyasəti həyata keçirməkdədir. Ölkəmiz bu məqsədlərə qoşulmazdan öncə də qeyd olunan 17 istiqamət üzrə böyük nailiyyətlər əldə edib. Sosial-iqtisadi sahədə qazandığımız uğurlar, əhalinin sağlamlığının qorunması ilə bağlı atılan addımlar, mütərəqqi təhsil, ekologiya siyasəti, gender bərabərliyinin qorunması göstərir ki, Azərbaycanın inkişafı kompleks xarakter daşımaqla dövlətin və xalqın maraqlarını layiqincə təmin edir.

Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilən iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının reallaşdırılması üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi önəm daşıyır. Məhz buna görə də Prezident İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanı ilə "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Milli Əlaqələndirmə Şurasının əsas vəzifələri qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin, eyni zamanda onlara dair göstəricilərin müəyyənləşdirilməsi, habelə ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasıdır. Ötən müddət ərzində Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlər BMT tərəfindən yüksək qiymətləndirilib.

Artıq Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərini əhatə edən istiqamətlər üzrə bir dəfə könüllü hesabat təqdim edib. İkinci milli hesabat isə BMT-nin müəyyən etdiyi "İnsanların hüquq və imkanlarının genişləndirilməsi və onların inklüzivliyinin və bərabərliyinin təmin edilməsi" tematik mövzusuna uyğun 4-cü "Keyfiyyətli təhsil", 8-ci "Layiqli əmək və iqtisadi artım", 10-cu "Bərabərsizliyin azaldılması", 13-cü "İqlim dəyişikliyinə qarşı mübarizə", 16-cı "Sülh, ədalət və səmərəli institutlar" və hər il nəzərdən keçirilən 17-ci "Məqsədlər üçün tərəfdaşlıq" məqsədləri üzrə təqdim olunub.

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi barədə ətraflı məlumat verib. Eyni zamanda nümayəndə heyətinin rəhbəri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb.

Hesabat İqtisadiyyat Nazirliyi tərəfindən yerli ekspert və Dayanıqlı İnkişaf Məqsədləri üzrə yaradılmış işçi qruplarının iştirakı ilə aidiyyəti dövlət qurumlarının məlumatları nəzərə alınmaqla hazırlanıb. Hazırda Azərbaycan regionda və MDB məkanında ilk, ümumiyyətlə isə dünyada ikinci hesabatı təqdim edən 14 ölkədən biridir.

Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əldə etdiyi uğurlar Əli Əhmədovun BMT Baş katibinin birinci müavini xanım Amina Mohammedlə görüşündə də xüsusi vurğulanıb. Amina Mohammed Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün yüksək səviyyəli Milli Əlaqələndirmə Şurasının yaradılmasını, qısa müddət ərzində Dayanıqlı İnkişaf Məqsədlərinə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını yüksək qiymətləndirib. O, Dayanıqlı İnkişaf Məqsədlərinin ümumilikdə icrası istiqamətində ölkə tərəfindən atılan addımların təqdirəlayiq olduğunu söyləyib.

Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti nəticə etibarilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda daha sürətlə reallaşmasına yol açıb. Digər tərəfdən bu məqsədlərə nail olunması istiqamətində görülən işlər 2016-cı ildən də əvvəl başlayıb. Ona görə Azərbaycan ikinci Könüllü Milli Hesabatını regionda və MDB də ilk təqdim edən dövlətdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Hər uşaq bir ümiddir





Uşaqlar cəmiyyətimizin gələcəyi, xalqımızın, dövlətimizin ən qiymətli sərvətidir. Uşaqlar sevgi, sədaqət, təmizlik, saflıq, məsumluq, dürüstlük kimi ən ülvi mənəvi dəyərləri özündə birləşdirən varlıqlardır. Bu gün uşaqların fiziki cəhətdən sağlam, vətənpərvər ruhda böyümələri, mükəmməl elmi biliklərə yiyələnmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılmışdır.





Ölkə Prezidenti cənab İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli fərmanı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu da uşaq evlərini ziyarət etməyi, onlara qayğı göstərməyi özünün ən ümdə vəzifələrindən biri hesab edir.

Mənəvi Dəyərlərin Təbliği Fondu mütəmadi olaraq hər il valideyn himayəsindən məhrum olmuş uşaqların məskunlaşdığı uşaq evlərini ziyarət edərək onlara müxtəlif hədiyyələr verir, cəbhə bölgəsində 1-ci sinfə gedəcək uşaqlara məktəbli forması, çanta və dərs ləvazimatları hədiyyə edir.

Bu il "Bir uşaq - bir ümid" layihəsi çərçivəsində Bakı, Gəncə, Şəki və Lənkəranda yerləşən uşaq evləri ziyarət edilmiş, uşaqlara müxtəlif hədiyyələr verilmiş, Bakı şəhərində yerləşən uşaq evinin 1-ci sinfə hazırlaşan sakinlərinə çanta və dərs ləvazimatları çatdırılmışdır.

"Bir uşaq - bir ümid" layihəsi hazırda davam etməkdədir. Belə ki, iyulun 22-də Bakı şəhərində yerləşən 2 saylı, avqust ayında isə 3 saylı uşaq evlərinin ziyarət edilməsi, ənənəyə uyğun olaraq həmin uşaq evlərinin balaca sakinlərinə müxtəlif hədiyyələrin, 1-ci sinfə getməyə hazırlaşan uşaqlara çanta və dərs ləvazimatlarının verilməsi nəzərdə tutulur. Həmçinin yeni tədris ilinin başlanması münasibətilə "Öndəki birincilər" layihəsi çərçivəsində cəbhə bölgəsində 1-ci sinfə gedəcək 200 nəfər uşağa məktəbli forması, çanta və dərs ləvazimatlarının hədiyyə edilməsi planlaşdırılır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Yüksək məhsuldarlıq keyfiyyətli toxumdan başlanır

Dünyada toxumçuluq sahəsində monopoliyanın əldə edilməsi uğrunda transmilli şirkətlər arasında ciddi rəqabət gedir. Məqsəd aqrar sektorda məhsul istehsalına nəzarəti artırmaqla daha çox gəlir əldə etməkdir. Həmin şirkətlər bu yolla mövcud toxumçuluğu tədricən sıradan çıxarmaqla fermerləri istehsal etdikləri toxumları almağa məcbur etməyə səy göstərirlər.

Bunun üçün birdəfəlik toxum istehsalına üstünlük verilir. Yəni köhnə toxumlar sıradan çıxarılır və fermerlər transmilli şirkətlərin yetişdirdikləri birdəfəlik toxumlardan istifadə etməli olurlar.

Mövcud toxum potensialını qorumaq üçün bu tendensiyaya qarşı dünyanın bir çox ölkəsində müvafiq tədbirlər görülür. Eyni zamanda toxumçuluqda yeni milli sortlar yetişdirməklə xarici təhlükələrin qarşısını almağa səy göstərilir. Xüsusilə insan üçün təhlükəli olan GDO-lu toxumların ölkəyə daxil olmasına sədd çəkmək üçün müvafiq qanunlar qəbul edilir.

Ölkəmizdə belə təhlükələrdən qorunmaq üçün qanunvericilik bazası təkmilləşdirilir. "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə əsasən dövlət reyestrində qeydiyyatdan keçmiş sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq (mənşə) sertifikatı və fitosanitar sertifikatı olan toxumlar ölkəyə idxal edilə bilər. Həmçinin dövlət reyestrində qeydiyyata alınmamış sortların toxumlarının yalnız seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə idxal edilməsinə icazə verilir. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 21.1. bəndinə əsasən Azərbaycan Respublikasının ərazisinə genetik modifikasiya olunmuş bitkilərin (GMOB) genetik materiallarının gətirilməsi, rayonlaşdırılması və dövlət reyestrinə daxil edilməsi qadağandır.

Qanun genetik modifikasiya olunmuş materialların gətirilməsinin qarşısını almaq üçün təkcə inzibati və pul cərimələri ilə kifayətlənmir. Bu işə ərzaq və milli təhlükəsizlik baxımından yanaşaraq qanuna əməl etməyən hüquqi və fiziki şəxslər barədə Cinayət Məcəlləsinin 166-cı (İxtiraçılıq və patent hüquqlarını pozma) və 200-cü maddələrinin (İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma) tələblərinə əsasən müvafiq tədbirlər görülür.

"Seleksiya nailiyyətləri haqqında" və "Toxumçuluq haqqında" qanunlara uyğun olaraq, ölkəyə geni dəyişdirilmiş orqanizmlərin toxumlarının gətirilməsi birmənalı şəkildə qadağandır. Lakin burada bəzi istisna hallar da var. Belə ki, gen mühəndisliyi əsasında alınmış bitki toxumlarının (genetik dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş orqanizmlərin) Azərbaycan Respublikasına idxalına icazə verilmir. Bu toxumların gətirilməsinə yalnız Nazirlər Kabinetinin müəyyən etdiyi müstəsna hallarda və qaydada yol verilə bilər.

Kənd təsərrüfatı bitkilərindən bol məhsul istehsalının əsasını məhsuldar sortlar təşkil edir. Təkcə onu demək kifayətdir ki, yüksək potensiallı sortdan və onun keyfiyyətli toxumundan istifadə məhsuldarlığı 25-30 faiz artırmağa imkan yaradır. Ona görə də toxumçuluğun təşkili, yeni sortların yaradılması böyük əhəmiyyət kəsb edir.

Bitki sortlarının qeydiyyatı və toxumçuluq işinin səmərəli təşkili və effektivliyinin artırılması məqsədilə ölkə Prezidentinin 3 oktyabr 2014-cü il tarixli sərəncamı ilə Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti yaradılıb.

Dövlət Xidmətinin əsas funksiyası yeni bitki sortlarını qeydiyyata almaq və toxumçuluğa nəzarət etməkdir. Bu funksiyaların həyata keçirilməsi üçün iki istiqamətdə - yeni bitki sortlarının qeydiyyatı, həmçinin qeydiyyata alınmış sortların toxumçuluğunun təşkili və sertifikatlaşdırılması işləri aparılır. Ölkədə sortların qeydiyyata alınması üçün 10 sınaq məntəqəsi, toxumların sertifikatlaşması üçün isə avadanlıqla təmin olunmuş 12 müasir regional laboratoriya yaradılıb. Yeni yaradılan laboratoriyaların əsas vəzifəsi toxumların keyfiyyətinə nəzarəti artırmaqdır.

Yeni toxum sortlarının yaradılması uzunmüddətli prosesdir. Odur ki, bu sahədə ləngimələrə yol vermək olmaz. Təzə toxum növlərinin yaradılması seleksiya prosesi adlanır. Yeni sortlar yaradılarkən ilk növbədə valideynlər seçilir və hibridləşdirilir. Beləliklə, ardıcıl seçmələr nəticəsində yeni sortlar meydana gəlir.

Ölkəmizdə fəaliyyət göstərən elmi-tədqiqat institutlarında müxtəlif növ toxumların yetişdirilməsi istiqamətində araşdırmalar aparılır. Yeni toxum sortları müvafiq sınaqlardan keçirildikdən sonra dövlət reyestrində qeydiyyata alınaraq onların istifadəsinə icazə verilir. Qeyd etdiyimiz kimi, yeni sortların yaradılması uzunmüddətli prosesdir. Məsələn, təkcə taxılçılıqda yeni sortların yaradılmasına 12-15 il vaxt lazımdır. Buna görə də hazırda ölkəmizdə bu istiqamətdə ciddi işlər görülür. Məqsəd toxumçuluqda inhisarçılığı ələ keçirən transmilli şirkətlərdən ölkəmizin mənafeyini qorumaqdır. Bu, həmçinin ərzaq təhlükəsizliyinin təminatının əsasını təşkil edən mühüm faktorlardan biridir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Hesablama Palatası yarımillik fəaliyyətinə yekun vurub

Palatanın mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, hesabat dövründə Hesablama Palatası mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq, 2018-ci ildə dövlət büdcəsinin, Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin icrasına, həmçinin 2019-cu il üçün dövlət büdcəsində, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsində dəyişikliklərə dair rəylərini hazırlayaraq Milli Məclisə təqdim edib. Eyni zamanda beynəlxalq təcrübəyə uyğun olaraq Hesablama Palatası 2018-ci il dövlət büdcəsinin icrası ilə bağlı hazırladığı rəy üzrə xülasə tərtib edib.

Hesablama Palatasının 2018-ci ildə fəaliyyətinə dair illik hesabat da hazırlanıb və Milli Məclisin plenar iclasında təqdim edilib. 2019-cu ilin iş planına əsasən, Hesablama Palatasının kollegiyası tərəfindən 5 təhlil və 32 auditin başlanılması ilə bağlı qərar qəbul edilib, ötən il üzrə iş planına uyğun 2018-ci ildə başlanılıb, nəticələri hesabat dövründə yekunlaşmış 1 audit də daxil olmaqla ümumilikdə 12 auditin və 5 təhlilin nəticələrinə baxılıb.

2018-ci ilin iş planına uyğun başa çatdırılmış auditlərin nəticələrinə dair qəbul edilmiş kollegiya qərarlarının icra vəziyyətinə nəzarət məqsədilə seçmə qaydasında monitorinqlər həyata keçirilib və 7 monitorinq üzrə müvafiq kollegiya qərarı qəbul edilib.

Hesabat dövründə nəticələri ilə bağlı müvafiq zəruri addımların atılması məqsədilə 17 quruma auditor hesabatı və 7 mərkəzi icra hakimiyyəti orqanına ümumilikdə 11 məlumat göndərilib, hər tədbirlə bağlı qanunvericilikdə nəzərdə tutulan qaydada Milli Məclisə məlumat verilib.

Altı ayda Hesablama Palatasının həyata keçirdiyi nəzarət tədbirlərinin əhatəsi ümumilikdə 1 milyard 13,3 milyon manat təşkil edib.

Hesabat dövründə aparılmış və nəticələri ilə bağlı qərar qəbul olunmuş auditlərin əhatə etdiyi vəsaitin 45,8 faizi dövlət büdcəsinin xərcləri, 16,9 faizi büdcədənkənar dövlət fondlarının vəsaitləri, 37,3 faizi isə digər mənbələrdən ayrılan vəsaitlər üzrə olub. Dövlət büdcəsi üzrə əhatə edilən vəsaitin əhəmiyyətli hissəsi 2018-ci ilin payına düşüb. Həmçinin hesabat dövründə nəzarət tədbirləri dövlət büdcəsinin funksional təsnifat üzrə 14 bölməsindən 9-nu əhatə edib. Nəzarət fəaliyyəti ilə əhatə olunmuş vəsaitin daha çox hissəsi dövlət büdcəsinin funksional təsnifatı üzrə (25,6 faiz) "Ümumi dövlət xidmətləri" bölməsinə aid olub. Əhatə edilmiş vəsaitin 97,4 faizi dövlət büdcəsinin mərkəzləşdirilmiş, 2,6 faizi isə büdcənin yerli xərcləri üzrə olub.

Bundan başqa, hesabat dövründə həyata keçirilmiş monitorinqlər istisna olmaqla, 2019-cu ilin İş planı üzrə aparılmış nəzarət tədbirlərinin 10-u Bakı şəhərində, 6-sı respublikanın ayrı-ayrı şəhər və rayonlarında aparılıb. Hesabat dövründə başa çatdırılmış auditlərin nəticələri təhlil edilib və təsnifləşdirilib. Həmin nöqsanlar arasında, hər il olduğu kimi, büdcə qanunvericiliyinin və dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi aktların tələblərinin pozulması, həmçinin mühasibat uçotu və hesabatlılıqla bağlı nöqsanların payı nisbətən yüksək olub. Eyni zamanda dövlət vəsaiti hesabına dövlət əmlakından istifadə sahəsində də nöqsanlar aşkarlanıb.

Kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən həyata keçirilmiş dövlət satınalmalarında bir mənbədən satınalma metodunun xüsusi çəkisi nisbətən yüksək olub. Eyni zamanda qurumlar tərəfindən bir sıra hallarda bir mənbədən satınalma metodunun tətbiqinin zəruri və ətraflı əsaslandırılmaması, həmçinin müvafiq satınalma prosedurlarının tam aparılmaması satınalmaların qalibinin müəyyənləşdirilməsi prosesində "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun dövlət satınalmaları zamanı vəsaitlərin istifadəsində qənaətliliyin və obyektiv yanaşmanın təmin edilməsi ilə bağlı tələb və prinsiplərlə uzlaşmayan riskləri formalaşdırıb.

Hesabat dövrü ərzində dövlət satınalmalarının keçirilməsi zamanı yol verilən pozuntularla bağlı iki, dövlət əmlakından təyinatı üzrə və qanunauyğun istifadə edilməməsi halı üzrə bir nəzarət tədbirinə dair müvafiq materiallar aidiyyəti üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib. Nəticələri ilə bağlı kollegiya qərarı qəbul olunmuş tədbirlər üzrə ümumilikdə 6,8 milyon manat, o cümlədən 365,1 min manat büdcədənkənar fondun büdcəsinə bərpa edilib.

## "Şahdəniz Bravo" platforması və "Xankəndi" gəmisi

### Dənizdə yaradılmış infrastruktur qazın hasilatında böyük rol oynayır

"Şahdəniz Bravo" platforması. "Şahdəniz-2"də quraşdırılmış bu qurğu əslində bir-birinə körpü vasitəsilə birləşdirilmiş iki platformadan ibarətdir. "Şahdəniz Bravo" qurğularının dayaq blokları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. Platformaların üst modulları isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində "AMEK-Tekfen-Azfen" (ATA) konsorsiumu tərəfindən araya-ərsəyə gəlib.

Birinci platformanın - Yaşayış Blokları və Texnoloji Təchizat Platformasının üst modulları 2017-ci ilin iyun ayından Xəzərdədir. Bu qurğunun dənizə vaxtında yola salınması və müvəffəqiyyətlə quraşdırılması Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində aparılan genişmiqyaslı işlər sırasında xüsusi önəm daşıyırdı. Çünki "Şahdəniz-2" layihəsi "Cənub qaz dəhlizi"nin birinci seqmentidir.

Platformalardan birincisinin konstruksiyasının çəkisi 12 min 400 tona yaxındır, uzunluğu 100, eni 60 metrə çatır. Qurğunun yaşayış bloku 100 nəfər üçün nəzərdə tutulub.

"Şahdəniz-2" üçün tikilən platformalardan ikincisinin - Hasilat və Dikborular Platformasının da üst modulları tikinti sahəsindən 2017-ci il sentyabrın 15-də yola salınıb və dənizdə quraşdırılıb.

Bu qurğuların tikintisinin uğurla başa çatdırılması 2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasiminin keçirilməsinə imkan verdi. Bundan bir qədər sonra - iyunun 30-da "Şahdəniz-2" layihəsindən Türkiyəyə ilk kommersiya məqsədli qaz daşımalarına başlandı. İyulun 30-da yatağın şimal cinahındakı SDC03Z quyusunun ventili açılaraq "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olundu.

Hazırda "Şahdəniz Bravo" qurğularından Səngəçal terminalına qaz və kondensat ixrac olunmaqdadır. Beləliklə, layihənin təhlükəsiz şəkildə və büdcəyə uyğun həyata keçirilməsi davam edir.

"Şahdəniz"də yeni quyular da qazılır. Onlar ölkəmizin ərazisindən, Gürcüstandan və Türkiyədən keçib artıq Avropaya doğru üz tutan Azərbaycan qazının mənbəyidir.

"Şahdəniz" yatağında işləyən, Xəzər dənizinin yeni flaqman gəmisi olan "Xankəndi" gəmisi isə 2017-ci il sentyabr ayının 6-da istismara verilib. Ən son texniki nailiyyətlərini özündə birləşdirən bu sualtı tikinti gəmisi "Şahdəniz-2" çərçivəsində Xəzər dənizində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilib və inşa edilib. 378 milyon ABŞ dolları dəyərində olan "Xankəndi"nin Bakıda keçirilmiş rəsmi açılış mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu gəminin önəmini vurğulayan faktdır.

Artıq xeyli vaxtdır "Şahdəniz" yatağı ərazisində uğurlu fəaliyyət göstərən "Xankəndi" gəmisi növbəti on il ərzində də burada sualtı quraşdırma və tikinti işlərini həyata keçirəcək.

***"Azərbaycan"***



## İnnovasiyalar Agentliyinin təşkilati dəstəyi ilə "New Generation Pitch Day" təşkil ediləcək

İyulun 31-də İnnovasiyalar Agentliyinin təşkilati dəstəyi ilə "New Generation Pitch Day" təşkil olunacaq.

"New Generation" layihəsinin 4 mərhələsi ərzində info-sessiyalar, təlimlər, mentor görüşlərini və biznesin inkişafı proqramını tamamlamış 25 sahibkar 35 min AZN-dək investisiya üçün öz bizneslərini münsiflərə təqdim edəcək. Startap və sahibkarlıq təcrübəsinə sahib münsiflər isə ən yaxşı layihələri seçəcək.

"New Generation Pitch Day" layihəsi İnnovasiyalar Agentliyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin "Youth Inc." Sahibkarlıq Proqramı və "Coca-Cola" Fondunun dəstəyi ilə həyata keçirilir.

## İnvestisiyanın əsas hissəsi sənaye və tikinti sahələrinə xərclənib

Yarım ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 48,4 faizi sənaye, 21,7 faizi isə tikinti sahələrinə xərclənib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, qalan vəsaitin 14,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 2,3 faizi informasiya və rabitə, 2 faizi təhsil, 1,1 faizi səhiyyə, 0,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, hər birində 0,6 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, peşə, elmi və texniki fəaliyyət, digər sahələrdə xidmətlərin göstərilməsi, 0,4 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 0,3 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, hər birində 0,1 faiz olmaqla maliyyə və sığorta fəaliyyəti, daşınmaz əmlakla əlaqədar əməliyyat sahələrinə sərf edilib.

## "Azeri Light"ın bir bareli 66,17 dollara satılır

AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,39 dollar geriləyərək 66,17 dollar təşkil edib.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin qiyməti 2001-ci ilin dekabrında minimuma enərək 19,15 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.

## Yerli istehsalın artması hesabına kərə yağı idxalı azalıb

Yarım ildə ölkəyə 6 min 525 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib.

Bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb. Hesabat dövründə idxal edilən kərə yağı və süddən hazırlanmış digər yağların dəyəri isə 32 milyon 556 min ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə ölkəyə 39 milyon 472 min dollarlıq 6 min 688 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilmişdi.





# Mədəniyyət





**Tarixin izi**

# Hicran yaşı...

**İki yüz altı il... Heç tarixin hesabı ilə də az müddət deyil. Ona bir millətin ayrılığının başlanğıcı kimi baxanda isə... gözlərin qaralır... Düşünürsən, görəsən, neçə nəslin ayrılıq ahı, həsrət naləsi var bu illərdə?!**
**İki əsrdən artıqdır bu millət ayrılığına şeir qoşur, nəğmə deyir. Əslində, onlar nə şeir, nə mahnıdır. Onlar bir millətin könlünün fəryadı, ahı, ağısıdır...**



## Birinci faciəmiz

Bu faciəyə bizi, əslində, uzun bir yol gətirmişdi... Hələ 1725-1726-cı illərdə I Pyotrun yazdığı 12 bənddən ibarət vəsiyyətnamə, orada yazılanlara əsrlər boyu cani-dildən əməl edənlər Azərbaycan xalqının çox faciələrinə fərman verdilər. I Pyotr öz xələflərinə Rusiyanı regionun güclü dövlətinə çevirməyin yollarını göstərmişdi.

Rusiya İmperiyasının Qafqazda siyasətindən narahat olan Qacarlar bunun qarşısını almaq üçün tədbirlər gördülər. Fətəli şahın vəliəhdi Abbas Mirzə Rusiyaya qarşı hərbi əməliyyatlara başladı.

1812-ci ilin mayında çar Rusiyası ilə Osmanlı İmperiyası arasında 1806-cı ildən davam edən müharibəyə son qoyulduğunu təsdiqləyən Buxarest sülh müqaviləsi imzalandı. Müqavilədə Osmanlı İmperiyası rusların Cənubi Qafqazı işğalını tanıdı.

Napoleonun Rusiyaya hücumu ilə bağlı yaranmış vəziyyətdən istifadə etməyə çalışan İran vəliəhdi Abbas Mirzə isə Rusiyanın işğal etdiyi Azərbaycan xanlıqlarına hücum etsə də, arzusuna çata bilmədi. 1812-ci ildə general P.Kotlyarevski bu hücumları dəf edərək bölgədə hərbi-siyasi üstünlüyə nail oldu. Bu zaman baş verənlərdən böyük narahatlıq keçirən bir ölkə də var idi. Bu, İngiltərə idi. Onun təkidi ilə İran Rusiya ilə müqavilə imzalamaq qərarına gəldi. 1804-cü ildən 1813-cü ilədək davam edən Birinci Rusiya-İran müharibəsini bitirən bu müqavilənin imzalanması 1813-cü il yanvarın 1-də general P.Kotlyarevskinin Lənkəranı tutması ilə sürətləndi.

1813-cü ilin oktyabrında iki dövlətin nümayəndələri sülh bağlamaq üçün Qarabağda Zeyvə çayı yaxınlığında Gülüstan kəndində rus ordugahında görüşdülər. Bu, Rusiya İmperiyası ilə İran dövləti arasında Azərbaycanın ərazisini bölən birinci müqavilə idi. Gülüstan kəndi bu faciəyə ilk şahid, ilk ünvan oldu. Tarixə imzalandığı yerin adıyla "Gülüstan" kimi daxil olan müqavilə ilə Azərbaycan torpaqları bölündü.

"Gülüstan" müqaviləsini Rusiya tərəfindən Nikolay Rtişev, Qacarlar tərəfindən Mirzə Əbülhəsən xan imzaladı. Müqavilənin sonunda tarixi belə göstərilirdi: "Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü. İran hesablaması ilə min iki yüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır".

Rusiya ilə İran müharibəyə son qoyduqlarına, bundan sonra əbədi dostluq şəraitində yaşayacaqlarına dair bir-birlərinə söz verdilər. "Gülüstan" müqaviləsi ilə aralarında bölüşdürdükləri torpaqların sanki əsl sahibi idilər. On bir maddədən ibarət müqavilədə bircə dəfə də Azərbaycan adını yazmadılar. İki dövlət qədim bir məmləkətin 410 min kvadrat kilometrlik ərazisini parçaladılar. Torpaqlarını bölüşdükləri Azərbaycandan kimsə orada iştirak etmədi. Abbasqulu ağa Bakıxanov isə həmin müqavilə imzalanan vaxt Rusiya dövlətinin nümayəndə heyətinin tərkibində tərcüməçi vəzifəsini yerinə yetirirdi. O, "Gülüstani-İrəm" əsərində bir millətin qara bəxtinə dönən o faciəni belə qələmə aldı: "Həmin ilin baharında (1813-cü il) İran dövləti ruslar tərəfindən alınan ölkələri geri qaytarmaqdan naümid oldu. Rum (Osmanlı) barışığı və Xorasanda baş verən iğtişaş nəticəsində şah barışığa meyil göstərdi. Mirzə Əbülhəsən xan Şirazi İran dövləti tərəfindən vəkil edildi. Sərdar Ratişşev də gəldi. Qarabağın Gülüstan adlı yerində, hicri 1228-ci (1813) ildə, təşrin-əvvəl (oktyabr) ayının 12-də Rusiya ilə İran dövlətləri arasında əhdnamə bağlandı. Bu əhdnaməyə görə İran dövləti Gəncə, Qarabağ, Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqlarını, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdud olan ölkələri Rusiya dövlətinə verdi. Onlar haqqında hər cür iddiadan əl çəkdi. Rusiya imperatoru da öhdəsinə aldı ki, şah hansı bir övladını vəliəhd təyin etsə, ona yardım göstərsin və hüququnu müdafiə etsin".

Müqavilədə Rusiya İmperiyası və İran dövləti arasında sərhədlər müəyyənləşdirilirdi. Daha doğrusu, Azərbaycan torpaqları əsasında yeni hüdudlar qoyulurdu. Müqaviləyə əsasən, Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlamaq hüququ verilirdi.

İki güclü işğalçı dövlətin bağladığı sazişdə qazanan bir tərəf də var idi. "Gülüstan" müqaviləsindən sonra məmləkətimizə ermənilərin köçürülməsi gücləndirildi. Erməni məkri ilə rus imperializminin siyasəti birləşdi və əsrlərlə davam edərək millətimizi ağır bəlalara düçar etdi.

## "Gülüstan" müqaviləsinin səbəbləri

Tarix sübut edir ki, belə faciələr birdən-birə baş vermir. Bizim babalarımızın da əsrlər boyu yol verdikləri yanlışlıqlar üst-üstə qalaqlandı və sonu "Gülüstan" oldu... Azərbaycanı bu faciəyə gətirib çıxaran başlıca səbəblərdən biri xanlıqlara bölünməsi idi. Təəssüf ki, onlar belə ağır məqamda da birləşmədilər. Azərbaycanı qoruya bilmədilər. Hər zaman qeyrətinə və qılıncına arxalanan xalqın təklənməsinə, hiyləyə salınmasına imkan yaratdılar.

## Ayrılığın ilk fərmanı

Bu, "sülh müqaviləsi" deyildi, Rusiya ilə müharibədə məğlub olmuş İranın Qafqazdan Rusiyanın xeyrinə əl çəkməsi idi. "Gülüstan" müqaviləsi nəticəsində Cənubi Qafqazın əksər hissəsi Rusiya İmperiyasının hakimiyyəti altına keçdi.

Sülh sazişi bağlamaqda dövlətlərin hərəsinin öz marağı var idi. Rusiyaya qurduğu imperiyanı yaşatmaq üçün yeni torpaqlar lazım idi. İran da bölgədə öz mövqeyini möhkəmlətmək məqsədi güdürdü. "Gülüstan" müqaviləsi sərhədlərin dəyişdirilməsinə əsas verirdi. Rusiya ilə İran Azərbaycan torpaqları sayəsində ərazilərini genişləndirdilər.

Azərbaycan xalqı üçün bu, son faciə olmadı. "Gülüstan" "Türkmənçay"a yol açdı. İkinci Rusiya-İran müharibəsindən sonra Rusiya Cənubi Qafqazı tamamilə tutdu. Və 1828-ci il fevralın 10-na keçən gecə Təbriz yolunun üç verstliyində yerləşən kiçik Türkmənçay kəndində yenidən barışıq paktı imzalandı. "Türkmənçay" müqaviləsində də Azərbaycanın adı çəkilmədi. Bir-birlərini hər an didməyə hazır olan Rusiya ilə İran yurdumuza sahiblənmək, törətdikləri cinayəti gizlətmək üçün Azərbaycan adını yenə müqaviləyə salmadılar.

"Gülüstan"dan sonra sanki ermənilərin üstünə gün doğdu. Çarizm yurdsuzları yurd sahibi etdi. XX əsrin əvvəllərinədək xüsusi planla Azərbaycanda bir milyondan çox erməni yerləşdirildi.

## "İki bölünməkdən elə qorxmuşam"...

"Gülüstan" müqaviləsi Azərbaycan xalqının ayrılığına ilk fərman oldu. Şair Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında yazdığı kimi, bir parça kağız böyük bir millətin başını kəsən, qolunu bağlayan hökmdara çevrildi:

Bir damcı mürəkkəb, bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü.
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü.

Şair Söhrab Tahir isə bu millətin ayrılıq xofunu belə ifadə edirdi:

İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha.

Bu gün o qədim torpaqlardan - 410 min kv.km-dən bizə qalan 86,6 min kv.km-dir. Keçən əsrin sonuncu onilliyində Azərbaycan torpaqlarının 20 faizini də sovetlər hər cür yardım göstərdiyi erməni daşnaklarına talan və işğal etdirdi...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Dünyanın yeddi möcüzəsi**

# Artemida məbədi



**Qədim dünyanın möcüzəsi sayılan bu tikili barədə əsrlər boyu heyrətlə, heyranlıqla söz açıblar. Antik dövrün məşhur alimi, riyaziyyatçısı və fiziki Arximedin müasiri, İsgəndəriyyə məktəbində Ktesibiosun rəhbərliyi altında fəaliyyət göstərmiş yunan mühəndisi və ixtiraçısı, bizanslı Filon (miladdan əvvəl 280-220) yazırdı: "Babilin Asma Bağlarını, Olimpdə Zevsin heykəlini, Rodos Nəhəngini, yüksək Misir Piramidalarının qüdrətini və Mausoleusun məzarını gördüm. Amma buludlara ucalan Efesdəki məbədi gördükdə digərlərinin kölgədə qaldığını hiss etdim".**

## Bərəkət və doğruluq tanrısı

Bu tikili - Artemida məbədi antik dünyanın məşhur və sitayiş olunan ziyarət yerlərindən biri idi. Efes şəhərini himayə edən ilahə Artemidanın şərəfinə mərmər məbəd tikməyi miladdan əvvəl knosslu memar Xarsifron təklif etmişdi.

Mənbələrə əsaslanan araşdırıcılar tanrı Artemis adına ilk türbənin miladdan əvvəl 800-cü illərdə Efesdəki nəhrin yaxınlığındakı bataqlıq sahildə inşa olduğunu bildiriblər. Məlumatlara görə, bəzən Diana da adlandırılan Efes tanrısı Artemida yunan Artemidası ilə eyni deyil. Belə ki, yunan Artemidası ov, Efes Artemidası bərəkət və doğruluq tanrısı idi.

Artemida məbədində Yupiterdən düşən meteorit olduğu güman edilən müqəddəs bir daş vardı.

Sonrakı əsrlərdə tikili dəfələrlə dağıdıldı, yenidən inşa olundu. Miladdan əvvəl 600-ci illərdə Efes böyük ticarət limanı şəhərinə çevrildi. Xarsifron adlı memar yüksək daş sütunları olan yeni və böyük məbəd inşa etdi.

Lidya çarı Krez miladdan əvvəl 550-ci ildə Efesi fəth etdi. Həmin döyüş zamanı məbəd dağıdıldı. Krez memar Theodorusa əvvəlkiləri kölgədə qoyan məbəd inşa etdirdi. Əvvəlkindən 4 mərtəbə, 90 metr yüksəklikdə, 45 metr enlikdə böyük olan yeni məbədin damı yüzdən çox daş sütunla dəstəklənirdi.

## "Herostrat şöhrəti"

Məlumata görə, miladdan əvvəl 356-cı ildə Efes şəhərinin gənc sakini Herostrat Artemida məbədini yandırdı. İşgəncə altında təqsirini etiraf edən Herostrat məbədi şöhrət qazanmaq üçün yandırdığını, hər kəsin onun barəsində bilməsini istədiyini söylədi. Onu edam etdilər. Məhkəmənin qərarı ilə Herostratın adının tarixə yazılması qadağan olundu. Məhkəmə qərarının icraçıları ev-ev dolaşır, "Herostratı xatırlamaq qadağandır!" deyə xəbərdarlıq edirdilər. Bununla Herostratın adını unutdurmaq istəyən məhkəmə onu daha çox tanıtdı, məşhurlaşdırdı. Hamı məbədi Herostratın yandırdığını öyrəndi. "Herostrat şöhrəti" ifadəsi belə yarandı. Həmin ifadə indiyədək də mənfi mənada işlədilir.

Yanğın hadisəsinin başqaları tərəfindən törədildiyini bildirənlər də olmuşdur. Belə ki, qədim yunan tanrısı - Zevsin qızı, Apollonun bacısı olan ilahə Artemidanın şərəfinə tikilmiş məbəd gətirilən ianələrin, qurbanların hesabına olduqca zəngin idi. Məbədin anbarında xeyli qızıl, pul və başqa qiymətli əşyalar saxlanılırdı. Buna görə məbədin kahinləri bir gün qərara gəldilər ki, qızılı və pulu saxlamaqdansa, tacirlərə faizlə borc versinlər. Kahinlərin planı baş tutdu. Onlar xeyli gəlir əldə etdilər. Ancaq bir müddət sonra borcların qaytarılmasında problemlər yarandı. Tacirlər borclarını ödəməkdən imtina etməyə başladılar. Onlar yaxşı bilirdilər ki, kahinlər məhkəməyə, yaxud başqa yerə şikayət edə bilməzlər. Çünki məbədin toxunulmaz olan sərvətlərindən şəxsi mənfəətləri üçün istifadə etdikləri hamıya məlum olar.

Kahinlər qorxuya düşdülər. Məbədin anbarında saxlanılan sərvətlər barədə onlar hər il xalq yığıncağında hesabat verməli idilər. Xalq yığıncağı anbarda həmin sərvətləri yoxlaya bilərdi. Kahinlərin məbədi yandırmaqdan başqa çarələri qalmadı. Təqsiri isə Herostratın boynuna qoydular. Həqiqəti gizlətmək üçün hər yerdə elan etdilər ki, Herostratı xatırlamaq qadağandır! Beləliklə, günahsız bir gəncin adı tarixə təqsirkar kimi düşdü.

## Dəfələrlə yandırılan məbəd...

Yanğın nəticəsində dağılmış məbəd qısa müddətdə dövrünün ən tanınmış heykəltəraşı Skopaslı Paros tərəfindən yenidən inşa edildi. Romalı tarixçi Plin yeni məbədin 130 metr uzunluqda, 68 metr enlikdə olduğunu yazırdı. Tavanını yüksəkliyi 18 metr olan 127 sütun dəstəkləyirdi. Tikinti işləri 120 il davam etdi. Miladdan əvvəl 333-cü ildə Makedoniyalı İsgəndər Efesə gələndə məbədin inşası başa çatmamışdı. Ovaxtadək tikilmiş yunan məbədləri içərisində belə böyük və möhtəşəmi olmamışdı. Məbəd tamamilə mərmərdən inşa edildi.

Eramızın 57-ci ilində Müqəddəs Paul xristianlığı yaymaq üçün Efesə gəldi. O, elə uğur qazandı ki, şəhərin dəmirçisi və məbəddəki heykəllərin bir hissəsinin sahibi Demetrius bundan təlaşa düşdü. Çünki o, hər il məbədə ziyarətə gələnlərin hesabına yaxşı gəlir əldə edirdi. İnsanların dinini dəyişdirməsi Demetriusu bu qazancdan məhrum edirdi.

Demetrius həyəcanla "Yaşasın efeslilərin Artemisi" deyərək xalqı öz ətrafına topladı. Onlar dərhal Müqəddəs Paulun yardımçılarından ikisini tutdular. Bundan sonra üsyan başladı. Nəticədə Müqəddəs Paul tutulmuş köməkçiləri ilə birlikdə Makedoniyaya dönməli oldu.

Böyük Artemida məbədi 262-ci ildə qotların basqınları zamanı da yandırıldı. Yüz il ötdü və Roma imperatoru Konstantin şəhəri yenidən inşa etdirdi. Xristian olduğu üçün o, məbədi bərpa etdirmədi. İmperatorun bütün səylərinə baxmayaraq, Efes keçmiş şöhrətinə qovuşa bilmədi. Çünki gəmilərin lövbər saldığı liman yox olmuşdu. Sakinlər şəhəri tərk edirdilər. Məbədin qalıqlarından başqa tikintilərdə, heykəllərin hazırlanmasında istifadə olunurdu.

1863-cü ildə memar Con Tertl məbədi araşdırmağa başladı və 1869-cu ildə 6 metr dərinlikdən məbədin sütunlarını aşkara çıxardı. Palçığın içərisindən çıxardığı heykəlləri və bəzi qalıqları Britaniya Muzeyinə apardı. Həmin muzeyin əməkdaşları 1904-cü ildə D.G.Hograthın rəhbərliyi ilə işləri davam etdirdilər. Onlar qazıntılar aparaq ərazidə bir-birinin üzərində tikilmiş 5 qalıq tapdılar.

...İndi Artemida məbədinin yerini görmək üçün gələn turistlər bataqlıq vəziyyətində olan bölgəyə baş çəkməli olurlar. Orada bir sütun basdırılıb. Bu, düz dayanaraq qollarını yanlara açmış bir tanrının - yunan üslubuna bənzəməyən tərzdə tikilmiş məşhur Artemidanın heykəlinin qalıqlarıdır.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Teatr**

# "ƏSA" yalnız qoltuq ağacı deyil

### Əlillərdən ibarət istedadlıların yaratdığı teatr da belə adlanır



## Həyat o zaman gözəl olur ki...

...Onların həyata bağlılığı isə tamamilə fərqlidir: fiziki qüsurlu və ya hərəkət məhdudiyyətləri olsa da, düşüncələrində, dünyaya baxışlarında, hər anın qədrini bilmək anlamında. Əlillik insanın bacarıq və qabiliyyətlərini reallaşdırması və cəmiyyətə təqdim etməsi, özü ilə başqaları arasındakı imkan fərqini asanlıqla aradan qaldırması, hətta tam sağlam adamlardan daha üstün keyfiyyətə malik olduğunu təsdiqləməsi üçün səddə çevrilə bilməz. Onlar müxtəlif peşə və sənət yollarında da bunu təsdiqləyirlər.

Əlilliyi olan aktyorlardan ibarət ilk inklüziv teatrın da fəaliyyət göstərməsini bura əlavə etsək, daha dolğun mənzərə yaratmış olardıq. Artıq səhnə sənətinin pərəstişkarlarının və peşəkarlarının da rəğbətini qazanmış "ƏSA" teatrının yaradılmasından üç il ötür. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasını bərpa etmək və sürətləndirmək, peşəkar sənətkarlarla birgə fəaliyyətini təmin etmək, onların sosial və ictimai rifahını yüksəltmək, nəinki teatrla, incəsənətin digər sahələri ilə də məşğul olmalarına həvəsləndirmək kimi məqsədlər "ƏSA" teatrının yaradılmasına səbəb olub.

## Yeganə inklüziv teatr

Fəaliyyətə başlamasından çox keçməməsinə baxmayaraq, yeganə inklüziv teatr olan "ƏSA" uğurlu tamaşalarla çıxış edərək öz dəstxəti ilə ictimai rəğbət qazanıb.

Teatrın iki ilə yaxın fəaliyyəti müddətində fiziki məhdudiyyətli və əlilliyi olmayan aktyorların iştirakı ilə dörd tamaşa ("Dumb", "Yuxum", "Adamlar və siçanlar", "Paris partladı"), bir performans hazırlanaraq fasilələrlə və dəfələrlə nümayiş olunub.

"ƏSA" teatrı onu izləməyə gələn tamaşaçılara və digər əlilliyi olanlara nəcib hisslər bəxş edərək, onlarda motivasiya yarada bilir. Eyni zamanda teatr fiziki sağlamlığını itirmişlərə ilham verməyi bacarır, onların həyata inamlarını, yaşayıb-yaratmaq hisslərini gücləndirir. Bu gənclərin fəaliyyəti cəmiyyətə, əsasən də fiziki məhdudiyyətli şəxslərə əlilliyin qüsur və ya son olmadığını, onların arzularının və xəyallarının önünə keçə bilməyəcəyini sübut edib.

Oynadıqları hər tamaşa ilə insanların qəlbini fəth etməyi bacaran bu gənclər öz timsallarında digər əlilliyi olanlara həyatda yaşamaq uğrunda mübarizə aparmağı öyrədirlər. Gəlin onların bəziləri ilə yaxından tanış olaq: Coşqun Məmmədov 1988-ci ildə Rusiyanın Tomsk vilayətində anadan olub. 1994-cü ildə ailəsi ilə birlikdə Azərbaycana köçüb. Dörd yaşında olarkən keçirdiyi xəstəliklə əlaqədar onda hərəkət məhdudiyyəti yaranıb. Lakin o, istəyindən əsla vaz keçməyib. 2017-ci ilin sentyabrından "ƏSA" teatrının kollektivinə qaynayıb-qarışıb. Əlil arabasında olmasına baxmayaraq, müxtəlif rəqs elementlərini bacarır. Orta təhsilli olsa da, ondakı aktyorluq məharəti heç də peşəkarlıqdan geri qalmır. Teatrın "Adamlar və siçanlar", "Paris partladı" tamaşalarında yaratdığı obrazlar yaddaqalan olub.

## "ƏSA" Parisi partlatdı...

Teatrın aktyorları arasında Fərid Əliyev kimiləri də az deyil. 1993-cü ildə Salyanda dünyaya göz açan Fərid orta məktəbi evdə təhsillə alıb. Serebral beyin iflici nəticəsində nitq qüsuru yaranan Fərid 2017-ci ildən bu kollektivin üzvünə çevrilib. Oynadığı "Yuxum", "Adamlar və siçanlar", eləcə də "Paris partladı" tamaşalarında özünün aktyorluq məharətini təsdiqlədib.

İmran Lalayev qatar qəzasında hər iki ayağını itirib, lakin hərəkətində bu o qədər də hiss olunmur. 1992-ci ildə Lənkəranda anadan olan Fərid Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdindəki İnşaat kollecində təhsil alıb. İmranın daxilindəki həyat eşqi ondakı aktyorluq qabiliyyətinə də müsbət təsir göstərib. O, ilk növbədə tamaşaçını xarizmatik görünüşü ilə ələ almağı bacarır. Eyni zamanda Fərid özünəməxsus qabiliyyət və istedadı ilə onu seyr edənləri ovsunlaya bilir. Onun "Adamlar və siçanlar" ilə "Paris partladı" tamaşalarında yaratdığı bir-birindən fərqli obrazlar da bunu təsdiqləyir.

"ƏSA"nın aktyorları arasında sevilən, seçilən, oynadığı tamaşalarda yadda qalmağa çalışan və buna nail olanlardan söz düşəndə Günay Məmmədovanın adı ilk çəkilir. 1978-ci ildə Bakı şəhərində dünyaya gəlib. 2014-cü ildən uzun sürən xəstəlik nəticəsində görmə qabiliyyətini itirən Günay həyata bəsirət gözü ilə baxır. İctimai-Siyasi Universitetin məzunudur. Bundan sonra o, ikinci təhsil də almaq qərarına gəlib və fiziki məhdudiyyətli insanlara yardım göstərməsi üçün tibb bacısı peşəsinə də yiyələnib. O, simasındakı məsumluqla yaratdığı obrazın daxili aləminin açılmasında məharətlə istifadə edir.





Teatrda tamaşaya qoyulan "Adamlar və siçanlar" və "Paris partladı" səhnə əsərlərində unudulmaz və sevilən obrazlar yaradıb.

Əlfidatlı Gülnar həyata nikbin baxışlı olsa da, fiziki cəhətdən qüsurlulardandır: serebral iflic onu da həmyaşıdlarından bir qədər uzaq salıb. Gülnar ixtisasca iqtisadçıdır, maliyyəçi peşəsinə yiyələnib. 1993-cü ildə Sumqayıtda anadan olan Gülnar "ƏSA"nın səhnəsində sanki heç böyüməyən bir uşaq saflığını təqdim edir. O, sanki özünün obrazını oynayır. "Adamlar və siçanlar" və "Paris partladı" tamaşalarındakı uğurları diqqətdən kənarda qalmayıb. Ötən il dövlət başçısı tərəfindən Prezident Mükafatına layiq görülüb.

Cəlilabad rayonunda 1991-ci ildə anadan olan Elşən Əsgərov da "ƏSA"da tanınan və sevilən istedadlılardan biridir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu olan Elşən 2004-cü ildə qəza nəticəsində sol gözünün görmə qabiliyyətini tamamilə itirsə də, həyata baxışları, yaşamaq uğrunda mübarizəsi azalmayıb, əksinə, bir az da artıb. Peşəkarlığı ilə səhnə sənətini sevdirən aktyorlardan biri kimi, onun da yaratdığı obrazlar uzun müddət tamaşaçılarını öz təsiri altında saxlayır. "Yuxum", "Adamlar və siçanlar", "Paris partladı" tamaşalarında yaratdığı obrazların səmimiyyəti daha çox diqqəti cəlb edir ki, bu da əsl peşəkarlığın göstəricisidir.

## Bir-iki kəlmə də "ƏSA"nın Elvini haqqında

1996-cı ildə Bakıda anadan olan Elvin Mirzəyevi aktyor həmkarlarından fərqləndirən bəzi məqamlar var. O, Bakı Humanitar Kollecin Bədii yaradıcılıq fakültəsinə daxil olub. Anadangəlmə natamam osteogenezdən əziyyət çəkən bu gənc üçün aktyorluq sanki bir məqsəd idi. Ona görə də 2016-cı ildən "ƏSA"ya gəlib. Səhnədəki dinamikliyi ilə tamaşaçıya enerji ötürməyi bacaran Elvin yaratdığı obrazlarda özünü sevdirir. Teatrın "Dumb", "Yuxum", "Adamlar və siçanlar" tamaşalarında belə obrazları məharətlə yaradıb.

Söhbət ya anadangəlmə, yaxud da sonradan müxtəlif qəzalardan qazanılan əlillikə bağlı fiziki sağlamlığında qüsur yaranan ölkə vətəndaşlarından, xüsusən də uşaq və gənclərdən gedir. Onların cəmiyyətə inteqrasiyasında dövlət və hökumət tərəfindən qəbul edilən fərman, sərəncam, qanun və qaydalardan başqa, ictimaiyyətin münasibətindən də çox şey asılıdır. Maraqlıdır ki, onların həyata baxış fəlsəfələrinin fərqliliyi istedadlarının üzə çıxmasında mühüm amil hesab edilir. Kimdir onlar: hətta qızıl medala layiq görülən olimpiyaçı, rəssam, bəstəkar, şair, yazıçı, toxucu, musiqiçi...

Bir sözlə, onların arasında kimlər yoxdur ki? Hətta əlil arabasında peşəkarlar səviyyəsində çıxış edən həvəskar aktyorlar da...

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Azercell

# abunəçilərinin nəzərinə

● "Azercell Telekom" MMC tərəfindən 29.05.2019-cu il tarixdən etibarən fakturalı xətt sisteminə aid nömrələr üçün yeni "Sərbəst 15", "Sərbəst 25", "Sərbəst 50" və "Sərbəst 75" tarif paketləri istifadəyə verilmişdir. Yeni tarif paketlərinin aktuallığını nəzərə alaraq, 19.08.2019-cu il tarixdən etibarən fakturalı xətt sisteminə aid nömrələr üçün "Hədsiz", "Hədsiz Zəng" və "Hədsiz İnternet" tarif paketlərinə qoşulma dayandırılacaq. Qeyd olunan tarixə kimi qoşulan abunəçilərə standart qaydalara əsasən tarifdən ümumi əsaslarla istifadəyə davam etmək imkanı təmin olunacaqdır.

● 19.08.2019-cu il tarixdən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün mövcud olan 25, 50, 100 AZN nominallı danışıq (ödəmə) kartlarından istifadə müddəti 180 gün tətbiq olunacaqdır.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

AzerGold QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC AzTU-nun müəllim və tələbə heyəti üçün "Çovdar" yatağına tanıtım səfəri təşkil edib



İyulun 17-də "AzerGold" QSC Azərbaycan Texniki Universitetinin müəllim və tələbə heyəti üçün "Çovdar" filiz emalı sahəsinə tanıtım səfəri təşkil edib. Müəllim və tələbələri "Çovdar" filiz emalı sahəsinin fəaliyyəti haqqında məlumatlandırmaq məqsədi daşıyan səfər filiz emalı sahəsində təhlükəsizlik qaydaları ilə tanışlıqdan başlayıb. Daha sonra qonaqlara qiymətli metalların hasilatı və emalı prosesi, filiz emalı sahəsində çalışan insanlar üçün yaradılan şərait, laboratoriyanın iş prinsipi haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, "AzerGold" QSC Azərbaycan təhsil ocaqları ilə geniş və çoxşaxəli əməkdaşlıq qurub. Bu əməkdaşlıq çərçivəsində 28 iyun tarixində "AzerGold" QSC-nin inzibati binasında "Mənim təcrübə hekayəm" adlı yazı müsabiqəsinin yekunlarına həsr olunan tədbir baş tutub. Cəmiyyət tərəfindən elan olunan sayca üçüncü yazı müsabiqəsinə təqdim edilən yazılar bədii və ədəbi keyfiyyəti, informasiya dolğunluğu və digər meyarlar əsasında qiymətləndirilib. 14 tələbənin iştirak etdiyi yazı müsabiqəsində birinci yeri Şəfiqə Abdurəhmanova (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti), 2-ci yeri Asiya Salahlı (ADA Universiteti), üçüncü yeri Elsevər Səfərov (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) tutublar. Qaliblər müvafiq sertifikatlar və pul mükafatları ilə təltif olunublar.

Yazı müsabiqəsi cəmiyyətin mərkəzi ofisində və "Çovdar" filiz emalı sahəsində istehsalat təcrübəsi keçən tələbələr arasında keçirilib. Yaz təcrübə proqramı çərçivəsində ADNSU, ADA Universiteti, AzMİU və AzTU-nu təmsil edən 24 tələbə dağ-mədən mühəndisliyi, geoloji kəşfiyyat, iqtisadiyyat, ictimaiyyətlə əlaqələr, mühəndis sistemləri və qurğularının tikintisi, insan resurslarının və biznesin idarə olunması sahələrində təcrübə keçərək praktik biliklər əldə ediblər.

***"Azərbaycan"***

## XV Avropa Gənclər Yay Olimpiya Festivalı



# Bakıda idman bayramı







*Əvvəli 1-ci səh.*

Yeddi gün davam edəcək yarışa ümumilikdə 48 Avropa ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti qatılacaq. 135 medal dəsti uğrunda, 12 arenada 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

Mərkəzində "Bakı-2019"un loqosu əks olunmuş qızıl, gümüş və bürünc medalların dizaynı Bakının irs və mədəniyyətini, eləcə də birlik və dostluq konsepsiyasını birləşdirən təsvirlərə əsaslanır. Onun bir tərəfində od və Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq abidələrindən olan Alov Qüllələri və Heydər Əliyev Mərkəzinin görünüşü əks etdirilib. Medalın digər üzündə Avropa Olimpiya Komitəsinin emblemi əks olunub.

Müxtəlif ölkələrin media orqanları yarışın təşkilini və gedişini şərh edəcək, atletlərin və idman mütəxəssislərinin rəylərini öyrənəcəklər. Görülən hazırlıq işləri deməyə əsas verir ki, Bakının evsahibliyi edəcəyi Avropa Gənclərinin XV Yay Olimpiya Festivalı yüksək səviyyədə təşkil olunacaq. Çünki idmançıların ədalətli mübarizəsi üçün hər cür şərait yaradılıb.

Xatırladaq ki, Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını, dəyərlərini və ideallarını öyrətmək, təbliğ etmək üçün Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülmüşdü. 14-18 yaşlılar arasında gənc avropalı idmançıları bir araya gətirən yarış ilk dəfə 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. İki ildə bir dəfə (cüt deyil, tək illərdə) - qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları və ya Panamerika Gənclər Oyunları kimi ənənəni Avropada davam etdirmək imkanı yaradır. Festivala evsahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququ qazanır.

Onu da qeyd edək ki, Olimpiya oyunlarının bir çox ənənələri, mərasimləri və ayinləri var. Hətta onların bir qismi ilə bağlı sirlər də yalnız son məqamlarda açılır. Olimpiya məşəlinin yandırılması məhz belə ənənələrdəndir. Elə bu xüsusda Avropa Gənclərinin Yay Olimpiya Festivalının sayca 15-ci yarışının da məşəli cari ilin aprel ayında İtaliyanın paytaxtı Romada IX əsrdə dostluq və qardaşlıq simvolu olaraq İmperator Avqust tərəfindən tikilmiş Ara Pasis muzeyində alovlandırılıb. Eyni zamanda festivalın simvolu sayılan "zeytun ağacı" Azərbaycana təqdim olunub. Tədbirdə Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev və digər şəxslər iştirak ediblər.

Gənclər və İdman naziri Azad Rəhimov tədbirdə qeyd etmişdi ki, 2018-ci ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncam əsasında "Bakı-2019" Təşkilat Komitəsi yaradılıb: "Azərbaycan bütün dünyada sönməz odu, Yanar dağı ilə məşhurdur. Əbəs yerə ölkəmizi "Odlar diyarı" adlandırmırlar. Bu gün Oyunların məşəlinin məhz bizə, Azərbaycana ötürülməsi idman alovunun daha da gur yanması, gənclərin ürəyində idmana olan sevgi məşəlinin daha da artması deməkdir. Bu gecə Oyunların məşəli qədim Romadan tarixi Bakıya - "Odlar diyarı"na gedəcək. Eyni zamanda qədim "zeytun ağacı" da Bakıya aparılacaq. Bu ağac sülhün, dostluğun rəmzi olmaqla Avropa Gənclərinin Yay Olimpiya Festivalının dərin köklərini nümayiş etdirir".

İrimiqyaslı idman tədbiri ölkələri və insanları dostluq şəraitində bir araya gətirir. Qarşıdan gələn növbəti görüşü - Avropa Gənclərinin XV Yay Olimpiya Festivalını təşkil edən Bakı həm də 14-18 yaşlı idmançılar arasında ünsiyyətin qurulacağı məkan olacaq. Tədbirin həm ev sahibi, həm də iştirakçıları idman mübarizəsi ilə bərabər yeni dostluq tellərinin yaranacağı günləri səbirsizliklə gözləyirlər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***



*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə əhalinin özünüməşğulluğunun təmin edilməsi üçün zəruri olan əmlakın (inventarların, maşın və avadanlıqların) satın alınması ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Cavadov Mövlud, tel.: (012) 596-35-26) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 2000,00 (iki min) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **08 avqust 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 avqust 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən **LOT 2.** Təsərrüfat mallarının satın alınması üzrə "Kartes" MMC, **LOT 6.** İnzibati binada quraşdırılmış yanğınsöndürmə sistemləri və avadanlıqlarına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması, **LOT 10.** Ümumi soyutma qurğularına (Chiller) texniki xidmətin satın alınması və **LOT 13.** Serverlər üçün soyutma qurğularına (Cracks) texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə "Climaservice AZ" MMC, **LOT 8.** Yanğından mühafizə sistemlərinə və qurğularına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə "Caspian Building Systems" MMC, **LOT 17:** Mühəndis-texniki avadanlıqlara texniki xidmətin satın alınması üzrə isə "Kindef" MMC qalib olmuşdur.

Qalib şirkətlərlə 15 iyul 2019-cu il tarixdə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

08 avqust 2019-cu il tarixdə baş tutması nəzərdə tutulan "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı, yerli orqanları və fondun nəzdində olan sosial xidmət müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması" üzrə açıq tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Vaqif, Sveta, Samir Qibləliyevlərə və Adəm, Faiq Əliyevlərə əzizləri

**BAYRAM ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ombudsman Elmira Süleymanova Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8903
Sifariş 2364
Qiyməti 40 qəpik